# Milli Musiqi Günü qeyd olunub



Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 132-ci ildönümü və 18 sentyabr - Milli Musiqi Günü münasibətilə Qəbələ Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində “Dahi Üzeyir Hacıbəyli və Azərbaycan musiqisi” adlı tədbir keçirilmişdir.

Tədbirdə MKS-nin direktoru Anar Rüstəmli Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı haqqında məlumat verib, milli musiqi mədəniyyətinin inkişafında əvəzsiz xidmətlərindən, dünya musiqi sənətinə verdiyi töhfələrdən söhbət açıb. O, bəstəkarın mədəniyyət tariximizdə peşəkar musiqi sənətimizin və milli operamızın banisi, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim kimi xüsusi yer tutduğunu vurğulayıb.

Anar Rüstəmli diqqətə çatdırıb ki, ulu öndər Heydər Əliyevin Fərmanı ilə hər il sentyabrın 18-də ənənəvi Üzeyir Musiqi Günü keçirilir. 2009-cu ildən başlayaraq ölkəmizdə hər il keçirilən və dahi bəstəkar Üzeyir Hacıbəyliyə həsr olunan Beynəlxalq Musiqi festivalları böyük əks-səda doğurur. Festival konsertlərində görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar iştirak edirlər.

Tədbirdə MKS-nin işçilərindən Məhəbbət Qarayeva, Maarif Həsənov, Sədaqət Kərimova, İradə Xəlilova və başqaları çıxış edərək Üzeyir Hacıbəylinin çoxşaxəli yaradıcılığından danışmışlar.

Sonda dahi bəstəkarın əsərlərindən parçalar dinlənilmişdir.

**Günel QARAYEVA,**
**mərkəzi kitabxananın əməkdaşı.**

# Qızılgül



Qızılgül gülçiçəklilər fəsiləsindən olan çoxillik bitkidir. Vətəni əsasən Anadolu, İran və Çindir. Şimal yarımkürəsində 400-ə qədər yabanı növü məlumdur. Qızılgül kolunda 800,1000 ə qədər çiçək hər çiçəkdə isə 80-ə yaxın ləçək olur. Bir çiçəyin çəkisi təqribən 3 və ya 4 qrama çatır. Bu bitki bəzi ölkələrdə qızılgül yağı almaq məqsədi ilə becərilir. Güldən alınan yağ ətriyatda ən bahalı ətirlərə əlavə edilir. Bundan başqa, qızılgül yağından təbabətdə də istifadə olunur.

**Qızılgülün faydaları bunlardır:** Boğaz iltihablarına və badamcıq vəzlərinə qarşı təsirlidir. Mikroböldürücüdür. Dəri xəstəliklərinə qarşı faydalıdır. Ağız yaralarının sağalmasına kömək edir. Diş ağrılarını aradan qaldırır. Öskürəyin, tərləmənin və ürək bulanmasının qarşısını alır. Qan azlığına və allergiyaya qarşı istifadə olunur. Qızılgülün suyu temperaturu aşağı salır və onun mürəbbəsi həzm prosesini asanlaşdırır.

# Əsrlərdən gələn müdrik kəlamlar

Həya-abırla yaşayıb dolanmaq istəyirsənsə, başqalarını rüsvay etmə.

* * *

Dostunun az olmasını istəmirsənsə, kin saxlayan olma!

* * *

Artıq dərəcədə kədərli olmaq istəmirsənsə, paxıl olma.

* * *

İstəyirsən ki, sirrinin üstü açılmasın, başqalarının sirrini açma.

* * *

Ləyaqətini itirməuk istəmirsənsə, öz üzünü başqalarının aynasında gör.

* * *

Ən aldadılmış ona deyəprlər ki, nağdı nisyəyə dəyişə.

* * *

Sənə pis deyəni onu sənə xəbər gətirəndən daha tez bağışla!

* * *

Elmli olub ağlı olmayan adama elm əziyyət verər.

**Topladı: Süsən RÜSTƏMLİ.**

# 2040-cı ilədək ən dinamik inkişaf edən yanacaq növü təbii qaz olacaq

2040-cı ilədək ən dinamik inkişaf edən yanacaq növü təbii qaz olacaq. Bu barədə ABŞ-ın Enerji İnformasiya Administrasiyasının (EIA) aylıq hesabatında deyilir.

Hesabata görə, 2015-2040-cı illər arasında dünya enerji istehlakı 28 faiz artacaq: “Bu artımın əksəriyyətinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) üzv olmayan ölkələrdə, xüsusən də Asiya ölkələrində olacağı gözlənilir. 2015-ci ildən 2040-cı ilə qədər dünyanın enerji istehlakının ümumi artımının 60 faizindən çoxu qeyri-OECD ölkələrinin hesabına formalaşacaq”.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

# İdman xəbərləri

## Əvəzedicilərdən ardıcıl 5-ci qələbə

“Səbail” - “Qəbələ” - 0:3

Əvəzedicilərin çempionatında V turun oyunları keçirilir.



Turun ikinci günü “Qəbələ”nin oyunu ilə başlayıb. Komandamız səfərdə “Səbail”in qonağı olub. “Qəbələ” meydan sahiblərinin müqavimətini yalnız ilk hissənin ortalarında qırıb. Rövlan Muradov 31-ci dəqiqədə hesabı açıb. Fasilədən sonra “Qəbələ” daha iki qol vurub. Çempionatın ən məhsuldar oyunçusu Ülvi İsgəndərov 2 dəfə rəqib qapısına yol tapıb. Beləliklə, ardıcıl 5-ci qələbəsini qazanan əvəzedicilərimiz turnir cədvəlinin zirvəsindəki mövqeyini möhkəmlədib.

## «Qəbələ»nin üç futbolçusu U-19-da



19 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının heyəti açıqlanıb. “Qəbələ”-nin üç futbolçusu da yığmaya çağırılıb. Bunlar Abbas Ağazadə, Faiq Hacıyev və Əli Sadıxovdur. Onlar millinin Almaniyada gerçəkləşəcək təlim-məşq toplanışında iştirak edəcək. Yığmamız sentyabrın 18-dən oktyabrın 1-dək Bad Vorişofen şəhərində hazırlıq keçəcək.

Xatırladaq ki, təlim-məşq toplanışı Avropa çempionatının seçmə mərhələsinə hazırlıq xarakteri daşıyır.

# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Corlu kənd sakini **Kərimova Səmayə Məhyəddin qızına və ailə üzvlərinə** verilmiş JN seriyalıv 374 F nömrəli (kod 40613005) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamənin sertifikatı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayonunun Çarxana Bələdiyyəsinin Bakı şəhər sakini **Yusifov Səməd Saleh oğluna** fərdi yaşayış evi tikmək üçün 0,12 hektar torpaq sahəsi satmaq barədə 17 fevral 2006-cı il tarixli 02 nömrəli **qərarı** və 17 fevral 2006-cı ildə 135 nömrə ilə qeydiyyata alınmış **torpaqların alqı-satqısana dair akt** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayonunun Çarxana Bələdiyyəsinin Bakı şəhər sakini **Ələkbərova Arzu Cabbar qızına** fərdi yaşayış evi tikmək üçün 0,12 ha torpaq sahəsi satılması haqqında 17 fevral 2006-cı il tarixli 02 nömrəli **qərarı** və 17 fevral 2006-cı ildə 136 nömrə ilə qeydiyyata alınmış **torpağın alqı-satqısına dair akt** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayonunun Çarxana Bələdiyyəsinin Bakı şəhər sakini **Abdullayev Səhrab İsa oğluna** fərdi yaşayış evi tikmək üçün 0,12 hektar torpaq sahəsinin satılması haqqında 17 fevral 2006-cı il tarixli 2 nömrəli **qərarı** və 03 mat 2006-cı il tarixli 127 nömrə ilə qeydiyyata alınmış **torpağın alqı-satqısına dair akt** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayonunun Çarxana Bələdiyyəsinin Bakı şəhər sakini **Abdullayeva İnci İsa qızına** fərdi yaşayış evi tikmək üçün 0,12 hektar torpaq sahəsinin satılması haqqında 17 fevrval 2006-cı il tarixli 2 nömrəli **qərarı** və 17 fevral 2006-cı il tarixlə 137 nömrə ilə qeydiyyata alınmış **torpağın alqı-satqısına dair akt** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayonunun Çarxana Bələdiyyəsinin Bakı şəhər sakini **Qəribov Ceyhun Şərif oğluna** fərdi yaşayış evi tikmək üçün 0,12 hektar torpaq sahəsinin satılması haqqında 17 fevral 2006-cı il tarixli 2 nömrəli **qərarı** və 17 fevral 2006-cı il tarixdə 138 nömrə ilə qeydə alınmış **torpağın alqı-satqısına dair akt** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və aparatın kollektivi iş yoldaşları **Şükür Tahirova** qayınanası

**ŞƏFİQƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzeti redaksiyasının kollektivi rayon icra hakimiyyətinin işçisi **Şükür Tahirova** qayınanası

**ŞƏFİQƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Qəbələ Turizm və Otelçilik üzrə Tədris Mərkəzinin kollektivi iş yoldaşları **Rəşadət Şahverdiyeva** atası

**ƏSABƏLİNİN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlıdığı verirlər.

Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1900